# Sultan Vələdin həyat yolu, ədəbi irsi və sufi dünyagörüşü

**Qasımova Nərmin**
Türkoloji mərkəzin mütəxəssisi
narminrahimova7@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti

## Xülasə

Sultan Vələd XIII əsrin ən əhəmiyyətli sufizm nümayəndəsi, şair və din xadimlərindən biridir. O, Mövlana Cəlaləddin Ruminin əziz oğlu, həm də Mövləvi sufizminin formalaşmasında əsas rol oynamış şəxsiyyət kimi tanınır. Sultan Vələd 1226-cı ildə Türkiyənin Larəndə (indiki Qaraman) şəhərində anadan olmuşdur. O, çox gənc yaşlarından atasının da yaxın olduğu böyük sufi ustadlarla əlaqədə olmuşdur. Bu dövr onun dini düşüncə və sufi yolunu formalaşdırmaqda mühüm rol oynamışdır. Mövlana Cəlaləddin Rumi 1273-cü ildə vəfat etdikdən sonra onun sufizm çevrəsi böyüməyə davam etmişdir. İlk olaraq, Ruminin ən yaxın müridlərindən biri Hüsaməddin Çələbi bu irsin lideri seçilsə də, 1284-cü ildə o vəfat etdikdən sonra Sultan Vələd bu vəzifəni qəbul etmişdir. Sultan Vələd həm də məhsuldar bir ədəbi şəxsiyyət idi. Onun yazdığı əsərlər sufizm nəzəriyyəsi, şeir və təsəvvüf ədəbiyyatının inkişafında böyük rol oynamışdır. Klassik türk ədəbiyyatında Cəlaləddin Rumi ənənəsinin ilk davamçılarından biri kimi tanınan Sultan Vələd bir divan, üç məsnəvi və “Maarif” adlı mənzum olmayan əsərin müəllifi kimi məşhurdur. O, əsərlərini ərəb, fars, türk və yunan dillərində qələmə almışdır. Lakin yaradıcılığında farsdilli nümunələr say baxımından üstünlük təşkil edir. Tədqiqatçıların hesablamalarına görə, Sultan Vələdin türkcə 14 qəzəli, 238 beyti, ərəbcə 8 mənzuməsi, 3 rübaisi, 220 beyti, yunan dilində isə 66 beyti mövcuddur. Sultan Vələd “Vələdnamə”, “Rübabnamə” və “İntihanamə” kimi əsərlərində irfani düşüncələrini oxucularla bölüşmüşdür. Şair 1312-ci ildə Konyada vəfat etmişdir.

**Açar sözlər:** Sultan Vələd, sufizm, şair, ədəbiyyat, Cəlaləddin Rumi

# Sultan Valad's life path, literary legacy and Sufi worldview

**Narmin Gasimova**
Specialist of the Turkological Center
*narminrahimova7@gmail.com*
Azerbaijan State Pedagogical University

## Summary

Sultan Valad was one of the most important representatives of Sufism, poets and religious figures of the 13th century. He is known as the beloved son of Mevlana Jalaluddin Rumi and as a figure who played a key role in the formation of Mevlevi Sufism. Sultan Valad was born in 1226 in the city of Larend (now Karaman), Turkey. From a very young age, he was in contact with great Sufi masters, to whom his father was also close. This period played an important role in shaping his religious thought and Sufi path. After Mevlana Jalaluddin Rumi died in 1273, his Sufi circle continued to grow. Initially, one of Rumi's closest disciples, Husameddin Celebi, was chosen as the leader of this legacy, but after his death in 1284, Sultan Valad assumed this position. Sultan Valad was also a prolific literary figure. His works played a major role in the development of Sufism theory, poetry and Sufi literature. Known as one of the first followers of the tradition of Jalaluddin Rumi in classical Turkish literature, Sultan Velad is famous as the author of a divan, three masnavis and a non-verse work called "Maarif". He wrote his works in Arabic, Persian, Turkish and Greek. However, Persian-language examples predominate in his work in terms of numbers. According to researchers' calculations, Sultan Valad has 14 ghazals, 238 verses in Turkish, 8 verses in Arabic, 3 rubais, 220 verses, and 66 verses in Greek. Sultan Velad shared his mystical thoughts with readers in works such as "Vələdnamə", "Rübabnamə" and "İntihanamə". The poet died in Konya in 1312.

***Keywords:*** *Sultan Valad, Sufism, poet, literature, Jalaluddin Rumi*

XIII əsr türk-islam dünyası sufizm fəlsəfəsinin, dini-mənəvi düşüncənin və klassik Şərq ədəbiyyatının inkişaf etdiyi mühüm dövrlərdən biri olmuşdur. Bu dövrün ən görkəmli nümayəndələrindən biri Sultan Vələd (tam adı Bahāʾ al-Dīn Muhammad Sultan Walad, türkcə Sultan Veled) hesab olunurdu. Sultan Vələd 1226-cı ildə Anadolu ərazisində yerləşən Larəndə şəhərində (indiki Karaman, Türkiyə) anadan olmuş, ömrünün böyük hissəsini Konya şəhərində keçirmişdir. Onun həyatı və yaradıcılığı sufizm fəlsəfəsinin inkişafı, Mövləvilik təliminin təşkili və klassik türk-islam ədəbiyyatının formalaşması baxımından mühüm elmi əhəmiyyətə malikdir. Onun yaradıcılığı klassik Şərq ədəbiyyatı, xüsusilə təsəvvüf poeziyası və erkən Anadolu türkcəsi üçün mühüm əhəmiyyət kəsb edir. Sultan Vələdin əsərləri sufizmin əsas prinsiplərini izah etməklə yanaşı, ilahi eşq, mənəvi kamillik, insanın daxili saflaşması və Allaha yaxınlaşma yollarını bədii və fəlsəfi formada təqdim edir. Bu baxımdan onun həyatı və yaradıcılığı həm tarixi, həm dini, həm də ədəbi aspektdən elmi araşdırmalar üçün mühüm mənbə hesab olunur. Atası Mövlana Cəlaləddin Rumi dövrünün ən nüfuzlu sufi alimlərindən biri idi və onun mənəvi dünyagörüşünün formalaşmasında həlledici rol oynamışdır. Anası isə Səmərqənd mənşəli Gəvher Xatun idi O, yalnız böyük sufi mütəfəkkiri və şair Mövlana Cəlaləddin Ruminin oğlu deyil, həm də Mövləlik təriqətinin formalaşmasında və yayılmasında mühüm rol oynamış dini lider, alim və şair kimi tanınır. Onun əsl adı Bəhaəddin Məhəmməd Vələd olmuşdur. Bəzi tarixi mənbələrdə onun adı Bəhaəddin Əhməd kimi də qeyd olunur. Mövlana Cəlaləddin Rumi oğluna öz atasının — Bəhaəddin Vələdin adını vermişdir. Sultan Vələd erkən yaşlarından dini-mənəvi mühitdə böyümüş və atasının elmi və irfani təlimləri onun şəxsiyyətinin formalaşmasında əsas rol oynamışdır.

Sultan Vələd ilk təhsilini atasından almışdır. O, ərəb dilini dərindən öyrənmiş, fiqh, Quran elmləri, təsəvvüf və dini-fəlsəfi biliklərə yiyələnmişdir. Atasının təşəbbüsü ilə o, dini təhsilini davam etdirmək məqsədilə qardaşı Əlaəddinlə birlikdə

Şam şəhərinə göndərilmişdir. Şam və Hələb kimi dövrün mühüm elmi mərkəzlərində o, Quran elmi, fiqh, hikmət və təsəvvüf sahəsində biliklərini daha da inkişaf etdirmişdir. Sultan Vələdin elmi və mənəvi formalaşmasında yalnız atasının deyil, həm də dövrünün digər görkəmli sufi şəxsiyyətlərinin mühüm təsiri olmuşdur. Bu şəxsiyyətlər arasında Burhanəddin Tirmizi, Şəms Təbrizi, Çələbi Hüsaməddin, Şeyx Salahəddin və Şeyx Kəriməddin xüsusi yer tutur.

Mənbələrə görə, Sultan Vələd əvvəlcə Burhanəddin Tirmizinin müridi olmuş və ondan təsəvvüf yolunun əsas prinsiplərini öyrənmişdir. Burhanəddin Tirmizinin 1241-ci ildə vəfatından sonra o, yenidən atasının rəhbərliyi altında təhsilini davam etdirmişdir. 1244–1247-ci illərdə isə o, Şəms Təbrizinin təsiri altında olmuşdur.

Şəms Təbrizinin qeybə çəkilməsindən sonra Sultan Vələd atasının tövsiyəsi ilə Şeyx Salahəddini özünə mürşid qəbul etmişdir. Bundan əlavə, o, atasının məsləhəti ilə Şeyx Salahəddinin qızı Fatma Xatunla evlənmişdir.

1263-cü ildən 1284-cü ilə qədər, yəni 21 il müddətində Sultan Vələd Çələbi Hüsaməddinin yanında fəaliyyət göstərmişdir. Hüsaməddin Çələbinin vəfatından sonra isə Şeyx Kəriməddinin şagirdi olmuşdur. Bununla yanaşı, o, dövrünün digər sufi alimləri ilə də əlaqədə olmuşdur.

Mövlana Cəlaləddin Ruminin 1273-cü ildə vəfatından sonra onun yaratdığı sufi məktəbi fəaliyyətini davam etdirmişdir. İlk olaraq bu məktəbin rəhbərliyi onun yaxın müridi Çələbi Hüsaməddinə verilmişdir. Hüsaməddin Çələbinin 1284-cü ildə vəfatından sonra Sultan Vələd Mövləvi təriqətinin əsas rəhbərlərindən birinə çevrilmişdir.

Sultan Vələd Mövləvilik təriqətinin təşkilati strukturunun yaradılmasında və inkişafında mühüm rol oynamışdır. O, təriqətin qaydalarını, təlim metodlarını və dini mərasimlərini sistemləşdirmişdir. Onun fəaliyyəti nəticəsində Mövləvilik yalnız dini təlim kimi deyil, həm də mühüm mədəni və ədəbi məktəb kimi formalaşmışdır. Sultan Vələd səma mərasimlərinə xüsusi əhəmiyyət vermiş və onu insanın mənəvi

yüksəlişinin simvolu kimi qiymətləndirmişdir. O, səmanı insanın nəfsdən uzaqlaşaraq Allaha yaxınlaşmasının bir vasitəsi və insanın mənəvi yüksəlişinin, ilahi eşqə qovuşmasının simvolu kimi qiymətləndirmişdir. Onun fəaliyyəti nəticəsində Mövləvilik Anadolu və ətraf bölgələrdə geniş yayılmış və sufizm tarixində mühüm yer tutmuşdur.

Sultan Vələd klassik türk-islam ədəbiyyatının görkəmli nümayəndələrindən biri olmuşdur. O, əsərlərini əsasən fars dilində yazmış, eyni zamanda ərəb, türk və rum dillərində də əsərlər yaratmışdır. Tədqiqatlara görə, onun türkcə 14 qəzəli, 238 beyti, ərəbcə 8 mənzuməsi, 3 rübaisi və 220 beyti, rum dilində isə 66 beyti mövcuddur. Onun yaradıcılığı bir divan, üç məsnəvi və bir nəsr əsərindən ibarətdir.

Sultan Vələdin divanı qəzəl, qəsidə, rübai, qitə, tərci-bənd, tərkib-bənd və müsəmmə kimi müxtəlif poetik formalardan ibarətdir. Divanda fars dilində yazılmış 826 qəzəl, 32 qəsidə, 9 qitə, 10 tərci-bənd, 23 müsəmmə və 454 rübai mövcuddur. Onun qəzəllərinin böyük hissəsi Mövlana Cəlaləddin Ruminin şeirlərinə nəzirə kimi yazılmışdır. Sultan Vələdin divanında ilahi eşq, mənəvi kamillik və sufi ideyaları əsas mövzunu təşkil edir.

Sultan Vələdin ilk məsnəvisi "Vələdnamə" hesab olunur. Bu əsər 1291-ci ildə yazılmışdır. Əsər fars dilində qələmə alınmış və 9007 beytdən ibarətdir. Ədəbiyyatda bu əsər şairin ilk məsnəvisi olduğu üçün həmçinin "İbtidanamə" kimi də tanınmaqdadır. Əsərdə ərəb, türk və rum dillərində də beytlər mövcuddur. Əsərdə sufizm fəlsəfəsinin əsas prinsipləri, mənəvi inkişaf, dini-irfani məsələlər geniş şəkildə izah edilmişdir. Burada Bahəddin Vələd, Cəlaləddin Rumi, Kəriməddin və s. kimik sufi şəxsiyyətləri haqqında mühüm tarixi məlumatlar da verilmişdir.

"Rübabnamə" Sultan Vələdin ikinci məsnəvisidir və 1301-ci ildə yazılmışdır. Əsər 8124 beytdən ibarətdir. Bu əsərdə insanın Allaha bağlılığı, dini və mənəvi kamillik, Quranın rolu və sufi fəlsəfəsi izah edilmişdir. Dini-əxlaqi məsələlər və mənəvi tərbiyə əsas mövzulardandır. Bu əsər həm nəsr, həm də nəzmlə

yazılmmışdır. Şair insanlara Qurana inanmalı olduqlarını və Quranın onlara düzgün yol göstərdiyini əsərdə vurğulamışdır. İnsanlara haqq yoluna gəlmələri və Allahın əmrinə tabe olmaqları üçün məsləhətlər vermişdir.

Sultan Vələdin üçüncü məsnəvisi “İntihanamə” hesab olunur. Bu əsər 1300-1312-ci illər arasında yazılmışdır və onun son məsnəvisi hesab olunur. Bu əsər onun dini-fəlsəfi baxışlarının yekun ifadəsi kimi qiymətləndirilir. Əsərdə sufizm fəlsəfəsi, insanın mənəvi inkişafı və dini-irfani məsələlər geniş şəkildə izah edilmişdir. Bu əsər fars dilində qələmə alınmış, nəsr və nəzm hissələrindən ibarət bir əsərdir. Bu məsnəvi əvvəl yazılmış “Valədnamə” və “Rübabnamə”nin davamı sayılsa da, onlardan fərqli olaraq burada türk, ərəb və rum dillərində beytlərə rast gəlinmir. Digər məsnəvilərində olduğu kimi müəllif bu əsərə ayrıca ad verməmişdir. Şair onu “Rübabnamə”nin bəhrinə – rəməl vəznində yazmışdır. Beytlərin sayı baxımından Tehran nüsxəsində 7085, Konya nüsxəsində 7000, İstanbul nüsxəsində isə 8313 beyt mövcuddur.

Sultan Vələd əsərin yazılma səbəbini belə izah edir: o, sükut və təfəkkür halında ikən Haqq-Taaladan nida gəlmiş, insanlara öyüd-nəsihət verməsi və onlara faydalı olması əmr edilmişdir. İlahi buyruğu yerinə yetirməyi özünə şərəf bilən müəllif “Valədnamə” və “Rübabnamə”də ifadə etdiyi hikmətli fikirlərə yenidən müraciət etmiş, düşüncələrini Qurani-Kərimin nuru ilə daha da zənginləşdirmişdir. Onun fikrincə, insanı pis əməllərdən, şər və böhtandan qoruyan, cəmiyyəti doğru yola yönəldən müqəddəs kitab Qurandır. Buna görə də şair Qurani-Kərimin insan həyatındakı rolunu yüksək qiymətləndirir və onun nuruna üz tutmağı tövsiyə edir. Bununla yanaşı, əsərdə digər dinlərə də hörmətlə yanaşma nümayiş olunur; Quranla bərabər İncil və Zaburdan bəhrələnməyin də əhəmiyyətli olduğu vurğulanır.

Əsərdə mövləvilik, səma mərasimləri və təsəvvüfi məsələlərə də toxunulur. Şəms Təbrizi ilə Cəlaləddin Rumi arasındakı münasibətlər və onların qarşılıqlı təsiri haqqında verilən məlumatlar xüsusi maraq doğurur. Məlum olduğu kimi, Mövlana

1244-cü ildə Konyada Şəms Təbrizi ilə ilk görüşündən sonra onun mənəvi təsiri altına düşmüşdür. Bu yaxınlıq Konya əhalisinin bir qismini narazı saldığı üçün Şəms Təbrizi şəhəri tərk edərək Şama getməyə məcbur olmuşdur. Onun gedişi Mövlananı dərindən sarsıtmış, bunu hiss edən Sultan Vələd atasının iztirabına son qoymaq üçün Şama yollanmışdır. Onun xahişi və Mövlananın həsrət dolu məktubları nəticəsində Şəms yenidən Konyaya qayıtmışdır. Lakin müridlərin qısqanclığı davam etdiyi üçün o, şəhəri bir daha tərk etmək qərarına gəlmişdir. Rəvayətə görə, Mövlananın kiçik oğlu Əlaəddin və bir qrup şəxs Şəmsi öldürərək cəsədini quyuya atmışdır. Bu hadisədən xəbər tutan Sultan Vələd onun nəşini çıxararaq Mövlana mədrəsəsinin yaxınlığında dəfn etmiş və bu sirri ömrünün sonunadək gizli saxlamışdır.

Sultan Vələd Şəms Təbrizi ilə atası Mövlana arasındakı münasibətlərin birbaşa şahidi olmuş, ondan irfan dərsi almış və ona dərin məhəbbət bəsləmişdir. Bu səbəbdən digər məsnəvilərində olduğu kimi "İntihanamə"də də bu mənəvi bağlılığa geniş yer vermişdir. Bu yanaşma yalnız bədii baxımdan deyil, eyni zamanda tarixi aspektdən də böyük əhəmiyyət daşıyır.

Sultan Vələdin nəsr formasında yazılmış mühüm əsərlərindən biri də "Maarif"dir. Bu əsər 56 bölümdən ibarətdir.

Əsərdə:

- Allaha sevgi və bağlılıq
- ibadətin mahiyyəti
- insanın mənəvi inkişafı
- təsəvvüf fəlsəfəsi

kimi məsələlər izah edilmişdir.

Bu əsər forma və məzmun baxımından Mövlana Cəlaləddin Ruminin "Fihi-ma fih" əsərinə bənzəyir. Sultan Vələd "Maarif" əsərində bu dünyanı haqlı olaraq bir imtahan yeri kimi dəyərləndirir. O, dünyada mövcud olan saysız-hesabsız canlı və cansız varlıqlar arasındakı fərqləri zahiri forma müxtəlifliyi kimi qəbul edir, lakin

cismani, yəni bədən fərqini əsas və həlledici fərq saymır. Bu baxımdan o, insanlar arasındakı fərqin onların bədən quruluşuna görə deyil, mənəvi aləminə və ruhuna görə müəyyənləşdiyini vurğulayır.

Sultan Vələdin “Maarif” əsərində elmə və alimlərə münasibəti də xüsusi diqqət çəkir. O, elmi maddi qazanc əldə etmək, vəzifə qazanmaq və ya nüfuz sahibi olmaq məqsədilə öyrənənləri tənqid edir. Bunun əksinə olaraq, elmi Allahın razılığını qazanmaq və insanlara fayda vermək üçün öyrənənləri həqiqi alim və Allahın sevdiyi bəndə kimi dəyərləndirir. Sultan Vələdin həyat yolu göstərir ki, o, dövrünün tanınmış arif və sufi şəxsiyyətləri ilə ünsiyyətdə olmuş, onlardan mənəvi və elmi biliklər əldə etmişdir. Xüsusilə onun mənəvi formalaşmasında Bürhanəddin Tirmizi, Şəms Təbrizi və Cəlaləddin Rumi kimi böyük sufi şəxsiyyətlərinin təsiri mühüm rol oynamışdır. Mənbələrdə qeyd olunduğu kimi, Mövlananın Şəms Təbrizinin mənəvi təsiri altına düşməsi Sultan Vələdə də təsirsiz qalmamış, o da Şəmsin söhbətlərində və məclislərində iştirak etmişdir.

Sultan Vələdin ən çox qatıldığı məclislərdən biri səma məclisləri olmuşdur. Tarixi məlumatlara görə, müəyyən müddətdən sonra o, bu məclislərə rəhbərlik də etmişdir. Onun baxışına görə, səma insanın nəfsdən, maddi aləmdən və küfrdən uzaqlaşaraq ruhi kamilliyə yaxınlaşmasının bir vasitəsidir. Səma mənəvi duyğuların və ilahi eşqin əməli şəkildə ifadə olunmasıdır. Bu hal eşqin və vəcdin zirvə nöqtəsi hesab olunur. Sultan Vələd səmanı ən yüksək mənəvi mərtəbə kimi qəbul edir və bu mərtəbəni Allah məqamına yaxınlıq, yəni ölümsüzlük mərtəbəsi kimi dəyərləndirir. Onun fikrincə, insan bu ilahi məqama çatdıqda maddi varlığını unudur və sanki tamamilə öz varlığından keçərək yoxluq halına qovuşur. Allah göylərin və yerin nurudur. O, hər şeyin canıdır. Bu işıq yalnız mömin bəndənin qəlbindən parlayır, ətrafı işıqlandırır; yəni Allah mömin bəndənin qəlbində təcəlli edir. Allah üçün ölənlər zahirən ölüdürlər, amma əslində onlar Allahın hüzurunda və rahatlıqdadırlar. Əsl ölüm bu şəkildə ölmək deyil. Əsl həyata sahib olan müqəddəsdir, həqiqət

yolunu qət etmək üçün əzab, sədaqət, qeyrət və sevgi tələb olunur. İnsan maddi varlığından tamamilə azad olana qədər özünə əmin olmamalıdır. Bu hisslər həmişə böyük təhlükə ilə üzləşir. Bu təhlükənin qarşısını almaq üçün böyük sədaqət və sevgi lazımdır. Çünki sevgi ölmür, əbədidir. Yaşamaq üçün insan Allahın sevgisi ilə ölməlidir.

Beləliklə, Sultan Vələd "Maarif" əsərində təsəvvüfün əsas ideyalarını bədii-fəlsəfi üslubda ifadə etmiş və bu dərin mənəvi həqiqətləri "məna dənizindən çıxardığı incilər" kimi insanlara təqdim etmişdir.

Sultan Vələdin poeziyası özünəməxsus irfani düşüncə və bədii ifadə tərzinə görə fərqlənir. Şairin fikrincə, insan ruh və cisim olaraq iki varlığın birləşməsindən yaranmışdır. Ruh ilahi, cisim isə maddidir. O, bu yanaşmalarını öz rübailərində bədii dillə ifadə etmişdir.

Sultan Vələd Mövləvilik təriqətinin inkişafında və yayılmasında mühüm rol oynamışdır. O, atasının yaratdığı sufi məktəbini qorumuş, inkişaf etdirmiş və gələcək nəsillərə çatdırmışdır. Onun əsərləri sufizm fəlsəfəsinin əsas prinsiplərini izah edən mühüm mənbələr hesab olunur.

Sultan Vələd 1312-ci ildə Konya şəhərində vəfat etmişdir. Sultan Vələdin elmi, dini və ədəbi fəaliyyəti sufizm tarixində mühüm yer tutur və onun irsi bu gün də böyük elmi əhəmiyyətə malikdir. Onun yaradıcılığı sufizm fəlsəfəsinin bədii və nəzəri əsaslarını əks etdirir və klassik Şərq ədəbiyyatının mühüm nümunələri sırasına daxildir. Sultan Vələdin əsərləri yalnız dini və fəlsəfi baxımdan deyil, həm də ədəbi və dilçilik baxımından böyük əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Gölpınarlı A. (2014), Sultan Veled. İbtidaname. İstanbul: İnkılap Kitabevi, 536.

2. Aydın C. (2020), Sultan Veled. Sufilerin sırları. Veledname. İstanbul: Sufi Kitap Yayınları, 400.

3. Quliyev E. (2025), Türk xalqları ədəbiyyatı, Bakı: “Elm və təhsil”, 858.
4. Değirmençay V. (2016), Sultan Veled divanı, İstanbul: Demavend yayınları, 753.
5. https://www.semazen.net/hz-sultan-veled/
6. https://www.turkedebiyati.org/sultan-veled/